

# Görkəmli tarixçi alim

***Azərbaycan xalqının görkəmli tədqiqatçı alimlərinin elmi-pedaqoji fəaliyyətini, yaradıcılığını və ictimai-siyasi fəaliyyətinin ayrı-ayrı sahələrini öyrənmək, onların mənalı həyat yolunu, zəhmətsevərliyini və vətəndaş mövqeyini, vətənpərvərliyini və yüksək insani keyfiyyətlərini gənc nəslə çatdırmaq çağdaş dövrümüzdə də mühüm əhəmiyyətə malikdir. Xalqımızın tarixinə, milli-mənəvi dəyərlərimizə kökündən bağlı olan belə tədqiqatçı alimlərin qələmindən çıxan tarixi kitablar geniş elmi ictimaiyyət və tələbələr tərəfindən sevilə-sevilə oxunan əsərlər sırasına daxildir. Belə alimlərdən biri ömrünün müdrik çağını yaşayan, tarix elmləri doktoru, professor Xəqani Məmmədovdur.***

Xəqani Məmmədov 1954-cü il iyun ayının 18-də Ağcabədi şəhərində dünyaya göz açmışdır. 1970-ci ildə Ağcabədi şəhər 1 saylı orta məktəbini bitirən X.Məmmədov elə həmin ildə də Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olur. 16 yaşı yenicə tamam olan gənc Xəqani tələbə yoldaşları içərisində ən cavanı idi.

Gecə-gündüz tarixi kitabları yorulmaq bilmədən kitabxanalarda fasiləsiz mütaliə edən Xəqani zəhməti və elmi biliyi hesabına 1975-ci ildə fakültəni fərqlənmə diplomu ilə bitirir. Təhsil Nazirliyinin göndərişi ilə doğma məktəbində tarix müəllimi işləyir. O, 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin aspiranturasına daxil olur. X.Məmmədovun istedadı və savadı diqqətdən yayınmır, 1982-ci ildə tarix fakültəsində müəllim vəzifəsinə təyin edilir. Deyirlər ki, cəmiyyətdə insanın mövqe tutmasının birinci amili onun öz sənətini ürəkdən sevməsidir. Sənətini və milli tariximizi canı qədər sevən Xəqani müəllim 1985-ci ildə namizədlik, 1998-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsini alır. 2000-ci ildə professor vəzifəsini tutur. Sürətlə keçən illər ərzində Xəqani Məmmədov zəngin və çoxsahəli elmi-pedaqoji yaradıcılıq yolu keçir. Bu dövr ərzində ciddi elmi tədqiqatlar apararaq dəyərli əsərlər yazır.

Xeyirxah fikir, söz və əməl sahibi olan Xəqani müəllimin həyat simfoniyasında mənəvi saflıq, poetik təbiət, Vətənə, xalqa sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq üstünlük təşkil edir.

Bu gün respublika elmi ictimaiyyətinin görkəmli alimlərindən biri, Azərbaycanda və türk dünyasında tanınmış dəyərli tarixçi alim, yüzlərlə insanın qəlbində özünə əbədi heykəl ucaldan, sevgi və istək dolu mənalı ömür yaşayan Xəqani Məmməd oğlu Məmmədovun anadan olmasının 65 və elmi-pedaqoji fəaliyyətinin 40 ili tamam olur. Qəlbinin hərarətini, zəngin elmi biliyini istəkli tələbələrinə öyrətmək, bütün insanlara əlindən gələn köməyi etmək, onlara mənəvi dayaq olmaq Xəqani müəllimin elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətinin başlıca amalına çevrilmişdir. Məhəmməd Peyğəmbər (s.) hədislərinin birində demişdir: "İnsanların ən xeyirlisi başqalarına xeyri dəyəndir". Xəqani müəllim həmişə belə xeyirxah insanlardan biri olmuşdur.

Qədim Roma imperatorlarından birinin dediyi kimi, ən böyük elm müdriklikdir, ən yüksək müdriklik isə xeyirxahlıqdır. Bu baxımdan onun həm rəhbər, həm müəllim, həm mütəxəssis kadr və həm də bir ziyalı kimi həqiqət konsepsiyası daha geniş ictimai məkan ölçüsü kəsb edir, Vətənə və xalqına xidmət onun başlıca amalıdır.

Hər kəsi səbirlə dinləmək, doğru-düzgün qiymət vermək, mühakimələrində obyektivlik, sərbəstlik, ardıcıllıq və qətiyyətlilik Xəqani müəllimin həyat kredosudur.

X.Məmmədov Azərbaycan tarix elmində öz sözünü deyən yaradıcı və məhsuldar tədqiqatçı alimdir, yaxşı yadımdadır, Xəqani müəllim Bakı Dövlət Universitetinin aspiranturasına daxil olduğu ilk günlərdən elmi tədqiqatlara böyük həvəs və istəklə yanaşırdı. Tədqiqatçı respublikanın, ozamankı İttifaq dövlətinin mərkəzi şəhərlərinin kitabxanalarında, arxivlərində yorulmaq bilmədən axtarışlar aparır, yeni-yeni arxiv materiallarını elmi dövriyyəyə cəlb edirdi. Həmin ciddi elmi axtarışların məntiqi nəticəsidir ki, onun qələminin məhsulu kimi Azərbaycanın XIX əsrin sonu - XX əsrin əvvəllərini əhatə edən milli hərəkat tarixi, Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, elm və mədəniyyət sahələrində fəaliyyəti, Türkiyədə və Azərbaycanda erməni quldurları tərəfindən törədilən soyqırımlar və bu kimi sanballı tədqiqat əsərləri yazıldı və geniş elmi ictimaiyyətin istifadəsinə verildi. Xəqani müəllim doktorluq dissertasiyasını müdafiə etməklə kifayətlənmədi. Müdafiədən sonra onun ali məktəblər üçün dəyərli dərs vəsaiti və monoqrafiyası, bir çox elmi əsər və məqalələri işıq üzü gördü. Onun Azərbaycan tarixi elminin müxtəlif sahələrinə dair çoxlu elmi əsərləri, dərslikləri və monoqrafiyaları, ali məktəblərimizdə tədris edilən və sevilərək oxunan kitabları vardır. Xəqani Məmmədovun elmi-tədqiqat sahəsi çox genişdir. Elmi yaradıcılığa və araşdırmalara başlayan və (1985-ci ildə) elmlər namizədi alimlik dərəcəsi alan X.Məmmədov, sonradan daha aktual problemləri tədqiq etməyə və Azərbaycan tarixinin sovet dövründə yasaq edilmiş problemlərini araşdırmağa başladı. Azərbaycan xalqının milli azadlıq mübarizəsinin qələbəsinin məntiqi nəticəsi kimi dövlət müstəqilliyinin bərpasının böyük əhəmiyyəti həm də o oldu ki, qədim və zəngin dövlətçilik tariximizin obyektiv yazılmasına əlverişli şərait yarandı. Azərbaycan tarixinin yeni təfəkkür tərzində, doğru-düzgün yazılmasına xüsusi diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyev 1993-cü il sentyabrın 21-də və 1997-ci il yanvarın 31-də ziyalılarla, AMEA-nın rəhbərliyi ilə görüşündəki nitqində Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən yazılmasının vacibliyini qeyd etmiş və bu istiqamətdə elmi-tədqiqat işlərinin genişləndirilməsinin zəruri olduğunu bildirmiş, tarixçilərə dəyərli məsləhətlərini, tapşırıqlarını və tövsiyələrini vermişdir. Azərbaycan tarixi elminin gələcək inkişaf strategiyasını müəyyənləşdirmək, tarixçilər ordusunu səfərbər etmək və istiqamətləndirmək baxımından Heydər Əliyev bu tarixi görüşləri ilə Azərbaycan tarixçilərinə hər hansı bir problemin dərindən və obyektiv araşdırılması üçün dövlət səviyyəsində hərtərəfli şərait yaratdı. Eyni zamanda, XIX-XX əsrlər Azərbaycan tarixinin yazılmasını daim nəzarətdə saxlayacağını, bu vacib məsələyə hərtərəfli kömək və yardım edəcəyini bildirdi. Bu, ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinə dövlət siyasəti səviyyəsində diqqət və qayğısının parlaq ifadəsi, tarixçilər qarşısında duran fəaliyyət proqramı idi. Heydər Əliyev demişdir: "...Tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də var. Tariximizin hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq... Biz qısa vaxtda heç olmasa XX əsrin tarixini yazmalıyıq".

Beləliklə də tarixçi alimlər yeni-yeni aktual mövzularla araşdırmalara başladılar.

Geniş araşdırmalara başlayan X.Məmmədov 1998-ci ildə "Azərbaycanda maarifçilik və milli hərəkat (XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri doktoru, alimlik dərəcəsi aldı. Onu da qeyd etməliyik ki, iki il əvvəl, yeni 1996-cı ildə onun tərəfindən "Azərbaycan milli hərəkatı (1875-1918-ci illər)" adlı monoqrafiyanın nəşr olunub geniş ictimaiyyətə çatdırılması respublika tarix elmində böyük marağa səbəb oldu və görkəmli tarixçi alimlər həmin kitaba yüksək qiymət verdilər. Arxiv sənədləri və milli-azadlıq hərəkatının görkəmli xadimlərinin, qabaqcıl ziyalılarının əsərləri, dövri mətbuat materialları əsasında, geniş araşdırmalar nəticəsində yazılan həmin monoqrafiyada ilk dəfə idi ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan milli hərəkatının sosial-iqtisadi və siyasi təməli, maarifçilik hərəkatı və milli-mədəni inkişaf, milli-demokratik ideyalar, erməni-azərbaycanlı münaqişələrinin milli-azadlıq hərəkatına təsiri, qabaqcıl ziyalıların türkçülük və demokratik dəyərlərə söykənən istiqlal mübarizəsinin ümummilli xalq hərəkatına çevrilməsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və s. məsələlər ətraflı tədqiq edilmişdir. X.Məmmədov həmin kitabda ilk dəfə olaraq Azərbaycan milli hərəkatının mərhələlərini müəyyənləşdirmiş, təkamül tarixini izləmiş, hər bir mərhələnin də özünəməxsus xüsusiyyətlərini səciyyələndirmiş, milli hərəkatın daxili və xarici amilləri faktlar və sənədlər əsasında müəyyənləşdirmişdir. Azərbaycan milli hərəkatı probleminin tədqiqi ilə bağlı arxiv materiallarının, habelə xarici sovetoloqların və azərbaycanşünas alimlərin bir çox tədqiqatlarının ilk dəfə elmi dövriyyəyə cəlb edilməsi kitaba elmi marağı daha artırmış, onun elmi-nəzəri və əməli əhəmiyyətini yüksəltmişdir. X.Məmmədov tədqiqatçı alim kimi Azərbaycan tarixinin bir çox məsələlərini araşdırmış və yorulmaq bilmədən yeni-yeni əsərlər və elmi məqalələr yazmışdır. "Azərbaycanda maarifçilik və milli hərəkat" (Bakı, 1998, doktorluq dissertasiyası), "Aydınlarımızın istiqlal mücadiləsi"(Bakı, 1999), "Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, elm və mədəniyyət sahəsində fəaliyyəti" (Bakı, 1999), "Azərbaycan xalqının milli istiqlal mübarizəsi" (Bakı, 2005, dərs vəsaiti), "Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri" (Bakı, 2007, monoqrafiya), "Erməni iddiaları və Azərbaycanlıların soyqırımı" (Bakı, 2008, dərs vəsaiti) və digər elmi əsərlər X.Məmmədovun qələminin məhsuludur. Bunlardan başqa O, "Azərbaycan tarixi" XI sinif, "Siyasi tarix" (I və II hissələr), "Azərbaycan tarixi" (Ali məktəblər üçün dərslik, Bakı, "Bakı Dövlət Universiteti Nəşriyyatı", 2014, 2015 və 2017-ci illər) və başqa dərsliklərin həmmüəllifidir.

Xəqani Məmmədov yaradıcı alimdir. Bu vaxta qədər onun 15 adda monoqrafiyası, dərsliyi, dərs vəsaiti, elmi-metodik kitabçaları, proqramları, 120-dən artıq elmi əsər və məqalələri çap olunmuşdur. Onun tədqiqatları Polşa, İsveç, Türkiyə və başqa xarici ölkələrdə nəşr edilmişdir.

Alim dövlətçiliyimizin qorunmasında və möhkəmlənməsində vətəndaş qeyrəti ilə irəlidə gedən ziyalılarımızdandır. Təhsil sisteminin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə dair Xəqani müəllimin səmərəli təklifləri və tövsiyələri vardır. Gözünün nurunu, qəlbinin işığını, elmi təfəkkürünü və zəkasının mayasını tələbələrinə, magistrlərinə və yetirmələrinə verən Xəqani müəllim bu gün, həqiqətən, çox xoşbəxt pedaqoqdur, çünki onun yetişdirdiyi yüzlərlə ləyaqətli kadrlar və mütəxəssislər Xəqani müəllimi özlərinin idealı sayır, ona çox böyük sevgi və sayğılarla, hörmət və ehtiramla yanaşırlar.

X.Məmmədov həm də respublikamızda bacarıqlı ali təhsil və elmi təşkilatçılarından biridir. O, 1995-2003-cü illərdə Bakı Biznes Universitetində beynəlxalq əlaqələr üzrə prorektor və Humanitar fənlər kafedrasının müdiri vəzifələrində işləmiş, 2005-2007-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Rəhbər kadrların ixtisasının artırılması fakültəsinin dekanı vəzifələrində çalışmış, 2007-ci ildə Təhsil Nazirinin əmrinə əsasən Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialının direktoru vəzifəsinə təyin edilmiş və 2013-cü ilə kimi həmin vəzifədə fəaliyyət göstərmişdir.

Filialın direktoru vəzifəsində işlədiyi dövr ərzində o, əsas fəaliyyətini tədris intizamının gücləndirilməsinə, tələbələrin dərsə davamiyyətinin yüksəldilməsinə, təhsilin keyfiyyətinin artırılmasına, filialın maddi-texniki bazasının möhkəmləndirilməsinə, xüsusən də tələbələrin bilik səviyyəsinin qiymətləndirilməsi zamanı obyektivlik və şəffaflığın təmin edilməsinə yönəltmişdir. Nəticədə, 2007-2012-ci illərdə əvvəlki illərdən fərqli olaraq, filial əməkdaşlarından 4 nəfər dosent elmi adını almış, 2 nəfər fəlsəfə doktoru elmi dərəcəsinə yüksəlmiş, filialın 8 məzunu Respublikanın müxtəlif ali məktəblərinin magistratura pilləsinə daxil olmuşlar. Filialın yerləşdiyi tədris inzibati korpusu əsaslı təmir edilmişdir. O, 2009-cu ilin mart ayının 18-də keçirilən Referendum ərəfəsində rəsmi vəkil olaraq Ağcabədi, Ağdam, Laçın, Goranboy, Beyləqan və Xocavənd rayonlarında keçirilən tədbirlərdə fəal iştirak etmişdir.

2013-cü ilin may ayında Azərbaycan Respublikasının BMT-dəki Daimi nümayəndəliyinin rəhbərliyi tərəfindən Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş beynəlxalq konfransda iştirak etmək üçün ABŞ-ın Nyu-York şəhərinə dəvət olunmuş professor X.Məmmədov həmin konfransda "Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının memarıdır" mövzusunda maraqlı məruzə ilə çıxış etmişdir. Professor Nyu-York şəhərində fəaliyyət göstərən Azərbaycan Diaspor Təşkilatının üzvləri ilə görüşmüş və orada "Erməni iddiaları və azərbaycanlıların soyqırımı" mövzusunda məruzə ilə çıxış etmiş və diaspor təşkilatı tərəfindən xatirə medalı ilə təltif edilmişdir.

Tarixin inkişaf dialektikasının qanunauyğun prinsipi belədir ki, cəmiyyətin tərəqqisində və irəliyə doğru inkişafında elm, maarif, təhsil, milli-mənəvi dəyərlər həmişə qabaqcıl rol oynamış və onu daha da zənginləşdirən ixtira sahibləri, böyük alimlər xalqın mənəvi irsinin zəngin fundamentini təşkil etmişlər. Bu gün üçüncü minilliyin baxış bucağından baxarkən həyatını elmə, təhsilə, gənc nəslin maariflənməsinə, onların cəmiyyətin layiqli vətəndaşı kimi yetişməsinə və formalaşmasına həsr edən insanların geniş və çoxşaxəli fəaliyyətin həyati əhəmiyyət kəsb edir. Həyatını və mənalı ömrünü bütünlüklə xalqına xidmətdə keçirən, xeyirxah əməlləri ilə nəsillərə nümunə olan nurlu zəka sahibi, gözəl ziyalılığı ilə seçilən vətəndaş qeyrətli professor Xəqani müəllim belə ziyalılarımızdandır. Xəqani müəllim özünün mənəvi və əxlaqi dünyasında həmişə cəsarət və qətiyyət nümayiş etdirmiş, onu tanıyanlara yüksək insani keyfiyyətlər nümayiş etdirmişdir.

Xəqani müəllimin mənalı ömür yolu, geniş həyat təcrübəsi var. Onun fəaliyyəti xalqına, dövlətinə sədaqət nümunəsi, vətənpərvərliyi isə gənclərə örnəkdir. O, bir azərbaycanlı kimi öz köklərinə, milli dəyərlərinə bağlı bir vətəndaşdır.

X.Məmmədovun daxili aləmində və bütöv xarakterində təmkinli bir müdriklik var, böyük səbir sahibidir, dostunu və opponentlərini axıradək dinləmək, öz fikir və mülahizələrini söyləmək, dəyərli tövsiyələrini vermək, onlara kömək əlini uzatmaq bacarığına malikdir.

Xalqımızın sevimli övladlarından olan Xəqani Məmmədov özünün mənalı ömrünü bütünlüklə elmə, təhsilə və maarifə həsr etməklə geniş elmi-pedaqoji və ictimai-siyasi həyat yolu keçmiş və 65 illik ömür bioqrafiyasının zirvəsinə yüksələ bilmişdir.

Hörmətli Xəqani müəllim! 65 illik yubileyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, Uca Tanrıdan Sizə cansağlığı və xoşbəxtlik, geniş elmi-pedaqoji fəaliyyətinizdə parlaq uğurlar, dövlətimizin və dövlətçiliyimizin inkişafını nümayiş etdirən yeni-yeni elmi əsərlər yazmağınızla bizi sevindirməyinizi arzulayıram!

**Nuru MƏMMƏDOV,**
**tarix elmləri doktoru, professor.**